# Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcəyik

***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının “Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması” mövzusuna həsr edilən 74-cü sessiyası bu il mayın 24-dən 31-dək virtual şəkildə keçirilib. Xatırladaq ki, ÜST-nin Baş direktoru Tedros Adhanom Qebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Prezident İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.***

***Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Dövlətimizin başçısı çıxışında ÜST-nin pandemiyaya qarşı qlobal mübarizənin əlaqələndirilməsi də daxil olmaqla, qlobal səhiyyə sahəsində idarəçiliklə bağlı aparıcı rolunu və səylərini dəstəklədiyini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: “Pandemiyanın lap ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Ölkədə COVID xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıqdır”.

Prezident İlham Əliyevin çıxışında daha sonra COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edildiyini, eyni zamanda, respublikamızda görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejiminin tədricən yumşaldıldığını vurğulayıb.

Xatırladaq ki, Azərbaycan dövləti tərəfindən dünyada COVID-19-un pandemiya elan edilməsindən ötən müddət ərzində vəziyyət ciddi nəzarətə götürülüb, ölkəmizdə infeksiya ilə mübarizə sahəsində sistemli işlər aparılıb, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla gerçəkləşdirilib. Bütün bunlarla bərabər, postpandemiya dövrü ilə bağlı da önəmli qərarlar qəbul edilib. Koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən sistemli layihələr, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət nəticələr qazanılıb.

Hazırda Azərbaycanın yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı göstəricilər nümayiş etdirən ölkələr sırasında olması bunları təsdiqləyir. Görülən tədbirlərin əsas məqsədi isə insanların sağlamlığının və təhlükəsizliyinin təmin olunmasıdır. Bütün bunlar rəsmi məlumatlarda da öz ifadəsini tapıb. Belə ki, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb və Prezidentin Ehtiyat Fondundan bu məqsəd üçün ilkin olaraq 20 milyon manat vəsait ayrılıb.

Hazırda həmin Fonda 113,8 milyon manat vəsait toplanıb ki, bunun da 7,4 milyon manatı vətəndaşlar tərəfindən ianə edilib.

Pandemiyanın mənfi təsirlərinin azaldılması ilə bağlı Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında zərər çəkmiş sahələrə dəstək, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, postpandemiya dövründə isə yeni iqtisadi artım modelinə keçid üzrə təxirəsalınmaz işlər nəzərdə tutulub.

Koronavirusla mübarizə büdcəsi 4 milyard manat olmaqla ÜDM-in 5,5 faizini, o cümlədən qeyri-neft ÜDM-in 7,9 faizini, büdcə xərclərinin isə 15,2 faizini təşkil edir.

Konoravirusla mübarizə çərçivəsində məşğulluq və sosial rifahın dəstəklənməsinə 610 milyon manat, səhiyyə məqsədlərinə 754,2 milyon manat, iqtisadi artım və sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə 1,1 milyard manat, verilmiş kredit portfeli üzrə 1,5 milyard manat, beynəlxalq miqyasda tədbirlərin dəstəklənməsinə 39,3 milyon manat vəsait xərclənib.

Prezident İlham Əliyevin reallaşdırdığı siyasət bir daha onu göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün ötən müddətdə bütün vasitələrdən səmərəli istifadə edilib. Məhz bunun nəticəsində sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin bir qisminin aradan qaldırılması mümkün oub. Bu zaman həm də beynəlxalq təcrübə nəzərə alınıb. Belə ki, koronavirusla mübarizədə uğur qazanan və karantin rejimini aradan qaldıran ölkələrdəki kimi, sonrakı dövrdə infeksiyanın geniş yayılmaması üçün məhdudiyyətlərin mərhələli şəkildə ləğvi zəruriliyi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev videoformatda çıxışında vurğuladığı kimi, Azərbaycanda cari ilin yanvar ayının ortalarından etibarən 18 yaşdan yuxarı bütün vətəndaşların könüllü olaraq peyvənd kampaniyasına başlanılıb. İndiyədək peyvənd olunanlara COVID-19 pasportları təqdim edilib.

Artıq 99,94 faiz “Sinovak”, qalanı isə “AstraZeneca” və “Sputnik” olmaqla, 2 milyon doza peyvənd istifadə edilib. Bu rəqəm respublika əhalisinin 20 faizini təşkil edib.

Prezident İlham Əliyev videoformatda çıxışında, həmçinin 2021-ci ilin “Səhiyyə işçiləri ili” elan olunmasını alqışladığını bildirərək, Azərbaycanın ÜST ilə olduqca səmərəli əməkdaşlıq etdiyini, ötən il bu qurumun respublikamızı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırdığını vurğulayıb. Dövlətimizin başçısı deyib: “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir”.

Prezident İlham Əliyev videoformatda çıxışında, eyni zamanda, Azərbaycanın bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pislədiyini diqqətə çatdıraraq, davam edən “peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyin narahatlıq doğurduğunu xatırladıb: “Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür”.

Ölkə rəhbərinin də vurğuladığı kimi, bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün dövlətlərin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunub.

Prezident İlham Əliyev çıxışının sonunda inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırıb.

***V.BAYRAMOV, “Xalq qəzeti”***